Salam, sülhsevər dostum Pinqvin, məni Çiçək adıyla tanı. Çünki adımın mənası tənha Çiçək anlamına gəlir. Sənin yazdığın məktubda arzularını, xəyallarını və hislərini mənim ilə bölüşdüyün üçün sevinirəm və təşəkkür edirəm. Həmçinin sənin sülhsevərliyini alqışlayıram. Kaş ki, sənin kimi sülhsevər insanlar milyonlarla olardı. Və bu Yer kürəsini sülh içində yaşadıb arzu və xəyallarımızı bir yerdə gerçəkləşdirərdik. Məndən məni maraqlandıran şeylər haqqında yazmağımı istəmisən. Utopiya haqqında eşitmisənmi? Utopiya haqqında dünya məni çox maraqlandırır, müasir fikir ilə desək, insanlar orda dinindən, dilindən, milliyyətindən, irqindən asılı olmayaraq çox xoşbəxt və sülh şəraitində yaşayıblar. Kədər, qəm, gözyaşı onlardan uzaq olub, görəsən sənin və mənim kimi sülhsevər insanlar birləşsək belə bir dünya yarada bilərikmi?

Çox istəyirəm ki, insanlar əmin–amanlıq, sülh içərsində yaşasınlar. Anaların göz yaşları, sevdiklərimizin itkisi, acılı günlərimiz olmasın. Bir– birimizə kin, küdurət, qisas hissi ilə baxmayaq. Güllə səsi ilə yatıb, oynanmayaq. “Müharibə” necə də ağır kəlmədir. Onun gətirdiyi fəlakətlər insanların yaddaşlarından silinmir və vurduğu yaralar heç vaxt sağalmır. Keçmiş və indiki nəsillərin yaşadıqları acı və ağır günləri təsəvvür edirəm. Dostum Pinqivin, gəl birlikdə sülh üçün mübarizə aparaq. Gələcəyimiz olan uşaqlar təkrar dəhşətli keçmişi yaşamasınlar. Mənə sual verirsən ki, ulduzları, Ayı yoxsa Günəşimi sevirsən? Mən Günəşi çox sevirəm, çünki Günəş hamının üzərinə bərabər parıldayır.

Yaxın qohumlarımın, dostlarımın, ata və qardaş itkisini, onlarla birlikdə yaşamışam. Və başa düşdüm ki, acını bütün canlılar bərabər hiss edir. Niyə görə Tanrının bizə bəxş etdiyi ömrü qısa yaşayaq? Nə qədər arzular, xəyallar yarımçıq qaldı, körpələr atasız, Ana və Atalar övladsız qaldı.

Mən inanıram ki, xalqlarımız sülh yoluna gələcəkdir və dediyin kimi bütün dünya buna şahid olacaq. Sülh şəraitində, sakit, əmin–amanlıqla, sevinc ilə, yaxınlarımız və sevdiklərimizlə birgə yaşamaq hamımızın haqqıdır. Biz çox dəyişikliklər edə bilərik, yenidən başlamağımız üçün çox şansımız var. Bütün kinimizi, qürurumuzu kənara qoysaq, sülhə nail olacağıq, biz bunu bacarmalıyıq.

Bir yerdən başlamaq lazımdır, axı biz əvvəldə bir yerdə yaşamışıq bir– birimizlə əlaqəmiz olub, qonşu olmuşuq, bunu yaşlı nəsildən eşidirəm– onların danışdıqlarından, xatirələrindən. Sənin dediyin ilə tamamilə razıyam, bəli biz birlikdə yaşayıb bu incə mədəniyyəti hər kəsə göstərməliyik.

Dostum Pinqivin, gəl hər ikimiz xalqlarımızı sülhə çağıraq. Xalqlarımız xoşbəxt, sülh və səadət içində yaşasınlar. Arzum budur ki, sülh göyərçini dimdiyindəki çiçək ilə səmamızda hər zaman uçsun.

Dediyin kimi Aya baxıb səni xatırlayacam.

Xoş arzularla,

Çiçək